**İdxalı və istehsalı qadağan olunan təsiredici maddələrlə bağlı xəbərdarlıq**
**(14 fevral 2023)**

Müvafiq qərarla təsdiq olunmuş və 29.12.2022-ci il tarixində ictimaiyyətə açıqlanmış siyahıda göstərilən təsiredici maddələrdən hazırlanmış preparatların 2023-cü il fevralın 1-dən istehsalı və idxalı dayandırılıb. 2024-cü il yanvarın 1-dən isə həmin preparatların ölkə ərazisində tətbiqi qadağan ediləcək.
Həmçinin AQTA tərəfindən qəbul olunmuş qərarla bağlı məktub göndərilən Azərbaycan Bitki Mühafizə Vasitələri, Gübrə İstehsalçıları və İdxalçıları Assosiasiyasından, eləcə də həmin təsiredici maddə tərkibli preparatların anbar qalıqları mövcud olan sahibkarlardan 2023-cü ilin əkin mövsümü ərzində qadağan edilməsi nəzərdə tutulan təsiredici maddələrdən hazırlanmış preparatların anbar qalıqlarının satışının təşkili və istifadə olunması üçün müvafiq tədbirlərin görülməsi bildirilib. Eyni zamanda bildirilib ki, 2024-cü il yanvarın 1-dək istifadə olunmamış preparatlarla bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İstifadəyə yararsız və istifadəsi qadağan olunmuş pestisidlərin, bioloji preparatların, onların birləşmələrinin və qablarının sahibindən geri alınaraq zərərsizləşdirilməsi və ya məhv edilməsi" Qaydalarının müddəalarına uyğun tədbirlər görüləcək.
Qeyd edək ki, "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, 2021-ci ildə AQTA-nın qərarı ilə 191 adda təsiredici maddədən hazırlanmış preparatların ölkə ərazisində tətbiqi qadağan olunub. Eyni zamanda Agentlik tərəfindən bu istiqamətdə aparılan araşdırmalar davam etdirilib. Nəticədə 2022-ci ildə müvafiq Beynəlxalq Konvensiyalarda, Avropa İttifaqında və Türkiyə Respublikasında istifadəsi qadağan olunan təsiredici maddələr əsas götürülməklə, siyahıya yeni 47 adda təhlükəli təsiredici maddənin əlavə edilməsi məqsədəuyğun hesab olunub. Bu məsələ müvafiq qaydada Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Səhiyyə Nazirliyi ilə razılaşdırılıb.
"Azərbaycan Respublikasında tətbiqi qadağan edilmiş təsiredici maddələrin Siyahısı"na əlavə olunan və 29.12.2022-ci il tarixində ictimaiyyətə açıqlanmış 47 adda təsiredici maddə ilə aşağıdakı siyahıdan tanış ola bilərsiniz:

1. 1,3-Dichloropropene
2. 1,7-Dioxaspiro-[5.5]-undecane
3. Amitraz
4. Atrazine
5. Benomyl
6. Beta-cypermethrin
7. Brodifacoum
8. Bromophos-ethyl
9. Carbaryl
10. Carbendazim
11. Carbosulfan
12. Chlorfenapyr
13. Chlorpyrifos (ethyl)
14. Chlorpyrifos-methyl

15. Coumachlor
16. Cyclanilide
17. Cyhexatin
18. Cyfluthrin
19. Diazinon
20. Dichlorvos (DDVP)
21. Diniconazole-M
22. Diquat
23. DNOC
24. EPN
25. Fenpropathrin
26. Flusilazole
27. Glufosinate
28. Haloxyfop
29. Hexaconazole
30. Imibenconazole
31. Iprodione
32. Linuron
33. Maneb
34. Metolachlor
35. Novaluron
36. Plant extracts (Red oak, Prickly pear cactus, Fragrant sumac, Red mangrove)
37. Propargite
38. Propineb
39. Pymetrozine
40. Short-chain chlorinated paraffins (SCCPs)
41. Tetramethrin
42. Terbutryn
43. Thiodicarb
44. Triadimefon
45. Triasulfuron
46. Trimedlure
47. Trifloxysulfuron